**UOT: 338.43, 339.5**

# KƏND TƏSƏRRÜFATININ DAYANIQLI İNKİŞAFININ QEYRİ-NEFT İXRACININ ARTMASINA TƏSİRİ

**Səbinə İzzət qızı Vəliyeva**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***
***e-mail: sabina_valiyeva@mail.ru***

***Xülasə***

*Azərbaycan Respublikasında qeyri-neft ixracının artması dövlətin iqtisadi siyasətinin prioritetlərindəndir. Araşdırmalarımız göstərir ki, kənd təsərrüfatı Azərbaycan üçün strateji sektordur və qeyri-neft ixracının artmasında xüsusi rol oynayır. Hətta koronavirus (COVID-19) pandemiyasının təsiri ilə 2020-ci ilin 9 ayı ərzində ölkəmizin qeyri-neft ixracının azalmasına baxmayaraq, kənd təsərrüfatı məhsullarının ixracında artım tempi qorunub saxlanılmışdır. Bu məqalədə kənd təsərrüfatı sektorunun dayanıqlı inkişafının Azərbaycanda qeyri-neft ixracının artmasına təsiri qiymətləndirilir və bu istiqamətdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün müvafiq təkliflər verilir.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, dayanıqlı inkişaf, meyvə-tərəvəz, qeyri-neft ixracı,* Ümumi Daxili Məhsul, *COVID-19.*

## Giriş

Azərbaycan COVID-19 pandemiyasına qarşı uğurlu mübarizə aparan dövlətlərdən olsa da, qlobal iqtisadiyyatda yaşanan problemlər ölkəmizdən yan ötməmişdir. 2020-ci ilin 9 ayı ərzində Azərbaycanın qeyri-neft ixracı 9,2 faiz azalmışdır. Qeyri-neft ixracının azalmasına baxmayaraq, bu müddətdə kənd təsərrüfatı məhsulları ixracında artım qorunub saxlanılmışdır. Belə ki, 2020-ci ilin yanvar-sentyabr aylarında 501,2 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulu ixrac olunmuşdur (9). Kənd təsərrüfatı məhsulları ixracının həcmi ötən ilin müvafiq dövrünə nəzərən dəyər ifadəsində 0,2 faiz artmışdır. Ümumiyyətlə, 2020-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft ixracının 39 faizini kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Onu da qeyd edək ki, 2020-ci ilin yanvar-sentyabr ayları ərzində ölkəmizdə Ümumi Daxili Məhsulun (ÜDM) 3,9 faiz azalmasına baxmayaraq kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artmışdır (8). Bu müddətdə kənd təsərrüfatı, meşə və balıqçılıq sektorunda yaradılan əlavə dəyərin ÜDM-də payı 7,6 faiz təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamının (5) uğurla icrası kənd təsərrüfatı sektorunda dinamik inkişafı təmin etməkdə mühüm rol oynamışdır. Yeri gəlmişkən qeyd edək ki, bu Sərəncamın icrasını təmin etmək üçün Nazirlər Kabineti tərəfindən təsdiqlənən Tədbirlər Planında daxili tələbin genişləndirilməsi vasitəsilə iqtisadi artımın sürətinin və məşğulluğun qorunması, yeni iş yerlərinin açılması məqsədilə ortamüddətli dövrdə dövlətin iqtisadi siyasətinin əsas prioritetləri müəyyənləşdirilmişdir. Bu zaman tikinti sektoru, dağ-mədən sənayesi, neft-kimya sənayesi, rəqəmsal iqtisadiyyat, nəqliyyat, ticarət və logistika, telekommunikasiya, daxili turizm fəaliyyət sahələri ilə yanaşı kənd təsərrüfatı və emal sənayesinin də prioritet sektor seçilməsi həm də ölkəmizin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Bu məqalədə Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafının qeyri-neft ixracının artmasındakı rolu qiymətləndirilir və bu istiqamətdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün müvafiq təkliflər verilir.

## Azərbaycanda qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı

Son illərdə dünya iqtisadiyyatında iqtisadi artım templərinin aşağı düşməsi, əmtəə bazarlarında qiymət volatilliyinin xeyli yüksəlməsi, xüsusilə 2020-ci ilin əvvəllərindən başlanan koronavirus pandemiyası və onunla əlaqədar bir çox ölkədə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni çağırışları yaratmışdır. Azərbaycan hökuməti də bu çağırışlara operativ cavab verərək "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının (5) icrasını təmin etmək üçün Tədbirlər Planı (6) təsdiqləmişdir. Bu zaman kənd təsərrüfatı və emal sənayesi də prioritet sektor seçilmişdir. Bildiyimiz kimi Azərbaycan Respublikasında kənd təsərrüfatı çox böyük potensiala malik olmaqla ölkəmizin inkişafında mühüm rola malikdir. Ölkədə heyvandarlığın, bitkiçiliyin, o cümlədən pambıq, çay və tütün kimi texniki bitkilərin istehsalının zəngin tarixi və özünəməxsus ənənəsi vardır. Ölkədə uğurla həyata keçirilən aqrar islahatlar bu sahədə dinamik inkişafa səbəb olmuşdur. Kənd təsərrüfatı sahəsi üzrə artım 2015-ci ildə 6,6 faiz, 2016-cı ildə 2,6 faiz, 2017-ci ildə isə 4,2 faiz, 2018-ci ildə 4,6 faiz və 2019-cu ildə 7,2 faiz olmuşdur (8; 10). Kənd təsərrüfatının dayanıqlı inkişafı nəticəsində son 7 il ərzində ölkəmizin Qlobal Ərzaq Təhlükəsizliyi İndeksindəki mövqeyi ardıcıl olaraq yüksəlmişdir. 2019-cu ildə Azərbaycan sözügedən hesabatda 53-cü yeri tutmuş və ərzaq təhlükəsizliyinin təmininə görə Asiya və Sakit okean ölkələri arasında ilk onluqda təmsil olunmuşdur (12).

Xüsusən də, bu müddətdə aqrar sahənin ölkənin qeyri-neft ixracatındakı mövqeyi möhkəmlənmişdir. Hazırda kənd təsərrüfatı sektoru Azərbaycanın qeyri-neft ixracının artmasında müstəsna rol oynayan mənbələrdən biridir. Belə ki, 2019-cu ildə ölkəmizdən 760 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac edilmişdir (8; 9).

**Qrafik 1. Qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı, mln. ABŞ dolları ilə**




***Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Qrafikdən də göründüyü kimi 2019-cu ildə qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı 39 faiz təşkil etmişdir. 2020-ci ilin 9 ayı ərzində də kənd təsərrüfatı sektoru qeyri-neft ixracındakı mövqeyini qoruyub saxlamışdır. Hesablamalarımız göstərir ki, qarşıdakı illərdə də kənd təsərrüfatı məhsullarının ixracının artırılması imkanları var.

Xüsusən də son illər ərzində meyvə-tərəvəz ixracının artımı müşahidə olunmuşdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2019-cu ildə Azərbaycandan 189 milyon ABŞ dolları dəyərində pomidor ixrac edilmişdir (9). 2020-ci ilin 9 ayı ərzində isə ölkəmizdən pomidor ixracı 168 milyon ABŞ dolları təşkil etmiş və 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz artmışdır.

**Kənd təsərrüfatı məhsullarının ixracının artırılması imkanları**

Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi, bu məqsədlə daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılmasına, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma və digər strateji vəzifələrin icrası təmin olunmalıdır. Məhz Nazirlər Kabineti tərəfindən təsdiqlənən Tədbirlər Planında (6) da bununla bağlı mühüm müddəalar var.

Sözügedən tədbirlər planın icrası da ölkəmizdə kənd təsərrüfatının dayanıqlı inkişafına töhfə verəcəkdir və kənd təsərrüfatının inkişafı ölkəmizin ixracında əmtəə diversifikasiyasına xidmət edəcəkdir. Bildiyimiz kimi, ölkənin xarici ticarətində nə qədər çox əmtəə və mal qrupu iştirak edirsə və ayrı-ayrılıqda onların ümumi ixracda payı nə qədər az olursa, bu əmtəə diversifikasiyasının səviyyəsinin yüksək olduğunu göstərir.

Həmçinin "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" əsasən qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması hədəflənmişdir (1). Aqrar Tədqiqatlar Mərkəzinin araşdırması da göstərir ki, 2015-2017-ci illər ərzində əksər bitkiçilik məhsulları üzrə Daxili Resurs Xərcləri (DRC) əmsalı vahiddən çox kiçikdir. Başqa sözlə bu o deməkdir ki, ölkə daxilində istehsal edilən bitkiçilik məhsullarının dünya bazar qiymətləri ilə satışından daxil olan 1 vahid gəlirin müqabilində, dünya bazar qiymətləri ilə müvafiq xərc göstəriciləri vahiddən çox aşağıdır(4). Yəni Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları ixrac bazarlarında qiymət rəqabətqabiliyyətliliyinə malikdir.

Qeyri-neft ixracının artımı iqtisadi təhlükəsizlik və makro sabitlik üçün strateji əhəmiyyətlidir. Amma qeyri-neft ixracının artımı kəmiyyət deyil, keyfiyyət baxımından, başqa sözlə, yaradılan mənfəət baxımından daha əhəmiyyətlidir. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə qlobal ixracda emal olunmuş, yəni daha yüksək əlavə dəyər yaradılmaqla istehsal olunmuş məhsulların xüsusi çəkisinin getdikcə artması müşahidə olunur. Belə ki, qlobal ticarət üzrə TRADEMAP informasiya bazasının məlumatlarına əsasən (11), ilkin kənd təsərrüfatı məhsullarının və emal olunmuş məhsulların ümumi ixracdakı xüsusi çəkisi 2001-ci ildə müvafiq olaraq 41,4 faiz və 58,6 faiz idisə, 2015-ci ildə bu göstəricilər müvafiq olaraq 38,4 faiz və 61,6 faiz təşkil etmişdir. 2001-2015-ci illərdə ilkin kənd təsərrüfatı məhsullarının ixracının həcmi 2,5 dəfə artdığı halda, emal olunmuş məhsullar üzrə bu artım 2,9 dəfə olmuşdur (2). Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı”nda (3) yeni qeyri-neft ixracı strategiyası hazırlanması nəzərdə tutulur. Bu sənəd həm də aqrar sənaye məhsullarımızın qlobal dəyər zəncirinə qoşulması prosesini sürətləndirəcəkdir. Dünya Bankının hesablamalarına görə, dəyər zəncirində iştirakın 1 faiz artması hər nəfərə düşən gəliri 1 faizdən də çox artırır, hansı ki standart ticarətdə bu göstərici 0,2 faizdir. Azərbaycan qlobal dəyər zəncirlərinə qoşulanda məhsul istehsalının bütün mərhələlərini deyil, rəqabət üstünlüyü olan mərhələsində fokuslanmalıdır. Məsələn, 2019-cu ildə Azərbaycandan 122 milyon dollar pambıq mahlıcı (pambıq lifi, daranmaya məruz qalmamış) ixrac etmişdir (8; 9). Araşdırmalar göstərir ki, bunun da son məhsula çevrilməsi ölkəmizə təxminən 400 milyon dollar gətirə bilərdi. Onun üçün də nəzərə almalıyıq ki, qlobal dəyər zəncirləri dərin ixtisaslaşmaya aparır.

Qeyd edək ki, yuxarıda göstərilən tədbirlərin reallaşması nəticəsində “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə qarşıya qoyulan hədəflərə də nail olmağa imkan verəcəkdir (2). Nəticədə 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının qeyri-neft ixracındakı payı bu məhsulların istehsal həcminin və səmərəliliyinin artırılmasına tətbiq edilən məqsədyönlü yanaşma əsasında əhəmiyyətli dərəcədə artacaqdır.

**Nəticə**

Prezident İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Fərmanı (7) ilə ölkəmizdə aqrar sektorda islahatların ikinci mərhələsi başlamış və çox uğurlu nəticələr əldə edilmişdir. Apardığımız araşdırma göstərir ki, Azərbaycan Respublikası kənd təsərrüfatının dayanıqlı inkişafına və ərzaq təhlükəsizliyinin təmini məsələsinə xüsusi diqqət yetirməklə səmərəli siyasət həyata keçirmişdir. Bu fəaliyyətlərin nəticəsidir ki, son 7 il ərzində ardıcıl olaraq Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycanın mövqeyi yüksəlmiş və ərzaq təhlükəsizliyinin təmin olunmasına görə Asiya və Sakit Okean ölkələri arasında ilk onluqda təmsil olunmuşdur. Eyni zamanda, kənd təsərrüfatının inkişafı qeyri-neft sektoru üzrə ixracın artmasına da mühüm töhfə vermişdir. Qarşıdakı illərdə də Azərbaycanın kənd təsərrüfatı ixracını artırmaq potensialı böyükdür. Xüsusən də işğaldan azad olunan ərazilərimizin təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizə əlavə imkanlar verəcəkdir. Strateji yol xəritəsinin qeyri-neft sektoru üzrə ixracın adambaşına 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması hədəfinin reallaşdırılmasında kənd təsərrüfatı sektoru mühüm rol oynayacaqdır.

Qeyd olunanlarla yanaşı uzunmüddətli qeyri-neft ixracı strategiyasında aqrar sektora aid məhsulların ixracı ilə bağlı xüsusi yanaşmanın olmasını təklif edirik. Belə bir yanaşma kənd təsərrüfatı məhsulları üzrə ixrac potensialının tam reallaşmasına xidmət edə bilər.

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir- http://www.president.az/articles/22110
2. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir- http://www.president.az/articles/22110
3. Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 15s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Aqrar Tədqiqatlar Mərkəzi. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin qiymətləndirilməsinə dair hesabat. Bakı: 2019, 17 s.
5. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı: 19 mart 2020-ci il. http://e-qanun.az/framework/44791
6. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı. Bakı: 04 aprel 2020-ci il. https://azertag.az/xeber/Koronavirus_COVID_19_pandemiyasinin_ve_bundan_ireli_gelerek_dunya_enerji_ve_sehm_bazarlarinda_bas_veren_keskin_dalgalanmalarin_Azerbaycan_Respublikasinin_iqtisadiyyatina_makroiqtisadi_sabitliye_olkede_mesgulluq_meselelerine_ve_sahibkarliq_subyektlerine_menfi_tesirinin_azaldilmasi_ile_bagli_bir_sira_tedbirler_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_2020_ci_il_19_mart_tarixli_1950_nomreli_Serencaminin_102_ci_bendinin_icrasi_ile_bagli_Tedbirler_Planinin_tesdiq_edilmesi_barede-1454827


**İnternet mənbələri:**


1. http://president.az
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az
3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. http://customs.gov.az/az/faydali/gomruk-statistikasi/
4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. http://agro.gov.az
5. www.trademap.org
6. https://foodsecurityindex.eiu.com/

S.I. Valiyeva

*Doctoral student* of the Agricultural Economics Research Center

**The impact of sustainable agricultural development on the growth of non-oil exports**

*Summary*

*Increasing non-oil exports is one of the priorities of the state's economic policy in the Republic of Azerbaijan. Our research shows that agriculture is a strategic sector for Azerbaijan and plays a special role in increasing non-oil exports. Even though the country's non-oil exports declined in the first nine months of 2020 due to the coronavirus (COVID-19) pandemic, the growth rate in agricultural exports was maintained. This article evaluates the impact of sustainable development of the agricultural sector on the growth of non-oil exports and makes relevant proposals to achieve the goals set in this direction in Azerbaijan.*

***Keywords:*** *agriculture, sustainable development, fruits and vegetables, non-oil exports, COVID-19.*

С.И. Валиева

*Докторант* Центра аграрных исследований

**Влияние устойчивого развития сельского хозяйства на рост ненефтяного экспорта**

*Резюме*

*Увеличение ненефтяного экспорта является одним из приоритетов экономической политики государства в Азербайджанской Республике. Наши исследования показывают, что сельское хозяйство является стратегическим сектором для Азербайджана и играет особую роль в увеличении ненефтяного экспорта. Несмотря на то, что экспорт страны, не связанный с нефтью, снизился за первые девять месяцев 2020 года из-за пандемии коронавируса (COVID-19), темпы роста экспорта сельскохозяйственной продукции сохранились. В данной статье оценивается влияние устойчивого развития аграрного сектора на рост ненефтяного экспорта и вносятся соответствующие предложения для достижения целей, поставленных в этом направлении в Азербайджане.*

***Ключевые слова:*** *сельское хозяйство, устойчивое развитие, фрукты и овощи, ненефтяной экспорт, COVID-19.*